

Bilal ALARLI

## Ustadnamələr

### 1

Sən o sən deyilsən, bəs onda kimsən,
De, səndə yaşayan ruh kimdən gəlir?
Adəmi Həvvaya bağlayan nədir,
Adəm hansı beldən, Nuh kimdən gəlir?

Hər nə gəlir, gəlir, dərd ilən gəlir,
Dərd çəkmə ki, dərdi dərd bilən bölür.
Oynayıb ağlayır, qəm çəkib gülür,
De, ağı tutmağa yuh kimdən gəlir?

Bilalı özünə kölgə biləsən,
Bir yanı dağılmış ölkə biləsən!
Zərbə kimə dəyir, bəlkə biləsən,
Ah kimi yandırır, uh kimdən gəlir?

### 2

Dostum, doğum günün mübarək olsun,
Nə yaxşı, qəddini əymədi illər!
Bir ömür yaşadın ağrı-acılı,
Saçının ağına dəymədi illər!

Bu hicranı qismət sandıq, bilirsən,
Bir ürəkdə iki candıq, bilirsən.
Biz alışdıq, biz də yandıq, bilirsən,
Bizim odumuza göynədi illər.

Bilal, bu urvatsız ömür də ötdü,
Quş qanadlı gənclik hayana getdi?
Bəxt bizi həsrətə, dərdə öyrətdi,
Vüsal qapımızı döymədi illər.

### 3

Bir ömürdü, ötüb keçdi qəfildən,
De, kim gümrah qaldı, de, kim qocaldı?
Loğman gəzdi, dərdə əlac tapmadı,
Xəstəyə can verən həkim qocaldı.

Əsdi əlim, əsdi başım, diz əsdi,
Dil dolaşdı, fikrim çaşdı, söz əsdi.
Dişim tökülməyə yaman tələsdi,
Saçım da ağardı, tüküm qocaldı.

Mərdlik qalmayıbdı mərd oyununda,
Bilal, baş aparır dərd oyununda.
Altmışa zər atdım nərd oyununda,
Şeşim onluq tutdu, yekim qocaldı.

## Hərcayı

Dizə çökmədim ki, dizim yeyilə,
Özümü beləcə çəkib dayandım.
Bu dağlar çətin ki, mənə əyilə,
Gözümü uzağa dikib dayandım.

Mənim axtardığım yerdə olmadı,
Həmişə yuxarı boylanıb qaldım.
Öz boyuma görə durub qalmadım,
Boyumdan özümə qalxıb ucaldım.

Bilmirəm ömrümün harasındayam,
Belimi bükmüşəm, hələ gedirəm.
Baxıram ki, yolun yarısındayam,
Necə gəlmişdim, elə gedirəm.

## Döşəmə

Dağ başında duman olar,
Təki dağ ol, duman keçər.
Gün tutular, bulud dolar,
Pis gün ötər, zaman keçər.

Gözlədiyin o xoş an gələr,
Bağ-bağçaya da can gələr.
Sən yaxşı ol, yaman gələr,
Yaman olar, yaman keçər.

Qüssədən yan öt, dayanma.
Öz yolunla get, dayanma.
Dərdə uyma, qəmə yanma,
Ah çəkərsən, aman keçər.

## Dünya öz işindədi

Şütüyüb keçir zaman,
Dünya öz işindədi.
Hər yanı alır duman,
Dünya öz işindədi.

Yol itir, izlər dolur,
Yel tutur, dizlər dolur.
Kövrəlib gözlər dolur,
Dünya öz işindədi.

Dərdi bölüb gedirik,
Bir-bir ölüb gedirik,
Kimə gülüb gedirik? -
Dünya öz işindədi!

## Oynatma

Gəldiyin kimi getdin,
Ömrümü al qan etdin.
Əsdin, yel kimi ötdün,
Bu hava tutdu məni,
Nə yava tutdu məni?!

Qaytar o günə məni,
Sev dönə-dönə məni.
Gəl, oynat yenə məni,
Bu hava tutdu məni,
Nə yava tutdu məni?!

Qol açdın, qanad çaldın,
Məni oyuna saldın.
Ruhumu candan aldın,
Bu hava tutdu məni,
Nə yava tutdu məni?!

Gözünlə ovla apar,
Dilə tut, tovla apar.
Dondur, qırovla apar,
Bu hava tutdu məni,
Nə yava tutdu məni?!

Mən ölüm, sən diri qal,
Nə çəkil, nə geri qal.
Son dəfə canımı al,
Bu hava tutdu məni,
Nə yava tutdu məni?!

## Canım

Döndü hamı can evinə,
Hara dönəcəksən, canım?
Balıq kimi çabalayıb,
Tora dönəcəksən, canım!

Özünü çox üzəcəksən,
Axtaracaqsan, gəzəcəksən...
Gen dünyadan bezəcəksən,
Dara dönəcəksən, canım.

Yollar üstə bitəcəksən,
Öz içində itəcəksən.
Bülbül kimi ötəcəksən,
Xara dönəcəksən, canım.

Yanıb işıq salacaqsan,
Üzüqara qalacaqsan.
Yardan yara alacaqsan,
Yara dönəcəksən, canım.

Ömrün dara çəkiləcək,
Əsib kalın töküləcək.
Qolun, belin büküləcək,
Gora dönəcəksən, canım.

525- ci qəzet.- 28 dekabr.- 2021- ci il.- S. 15.